# MƏDƏNİ İRSİMİZİN MİLLİ VARLIĞIMIZDIR

## Yekunlaşmaqda olan Dövlət Proqramı hansı nəticələrlə yadda qaldı?

Milli-mədəni irs nümunələri adətən mənsub olduqları xalqın tarixinin qədimliyinin, zənginliyinin göstəricisi hesab edilir.

Milli-mədəni irs dedikdə, muzey, incəsənət, audiovizual (o cümlədən kino), teatr, kitabxana, əlyazma, arxiv, folklor, arxeologiya, etnoqrafiya, memarlıq, dekorativ-tətbiqi sənət nümunələri və tarix-mədəniyyət qoruqları nəzərdə tutulur. Mədəni irs nümunələri maddi (daşınmaz və daşınar) və qeyri-maddi mədəni irs nümunələrinə bölünür.

Maraqlıdır ki, mədəni irsin qorunması bütün dünyada aktualdır. Bu məsələ XX əsrdən etibarən dünyanı xüsusilə narahat etməyə başlayıb, çünki münaqişələrlə bağlı bir dövrə qədəm qoyulub.

II Dünya müharibəsindən sonra bu sahədə beynəlxalq sənədlər imzalanıb, sonrakı illərdə UNESCO və quruma üzv olan ölkələrin təşəbbüsü ilə "Hərbi münaqişələr zamanı mədəni dəyərlərin qorunması haqqında" (1954), "Dünya mədəniyyət və mədəni irsin qorunması haqqında" (1972) və s. konvensiyalar qəbul edilib.

Azərbaycan da bu sahədə mövcud olan beynəlxalq sənədlərə, o cümlədən sualtı mədəni irsin qorunması, memarlıq abidələrinin qorunması haqqında konvensiyalara qoşulub. Bir sıra tarixi abidələrimiz UNESCO-nun qeyri maddi-mədəni irs siyahısına daxil olunub. Ümumilikdə dünyanın 148 ölkəsinin 900-dən çox mədəniyyət obyekti bu siyahıda yer alır.

### *1400-dən çox yeni abidə aşkar olunaraq qeydiyyata alınıb*

Qeyd edək ki, Azərbaycan xalqının çoxəsrlik zəngin tarixi və mədəni irsinin qorunması, bərpa-konservasiyası və gələcək nəsillərə çatdırılması daim dövlətin diqqət mərkəzindədir. Bu istiqamətdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva istər ölkə daxilində, istərsə də xaricdə böyük işlər həyata keçirirlər. Mədəni irsin qorunması sahəsinə verilən önəm ölkə başçısının imzaladığı bir çox fərman və sərəncamlarda öz əksini tapıb və prioritet sahələrdən birinə çevrilib.

Tarix və mədəniyyət abidələrinin qorunması və mühafizəsi sahəsində kompleks işləri həyata keçirmək və əldə olunmuş nailiyyətlərin davamlılığının təmin edilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2013-cü il tarixli Sərəncamı ilə "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı" təsdiqlənib. Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası və qorunması işinin təkmilləşdirilməsi, abidələrin inventarlaşdırılması,



Gəncə şəhəri, "Şah Abbas" karvansarayı

pasportlaşdırılması, mühafizə zonalarının müəyyənləşdirilməsi, müasir tələblərə cavab verən məlumat bazasının yaradılması və sahəyə aid digər işlərin həyata keçirilməsi Dövlət Proqramında əsas istiqamət kimi nəzərdə tutulub.

Bu il Dövlət Proqramının sonuncu ilidir. Həmin müddət ərzində görülən işlərdən danışan Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin Mədəni irsin qorunması üzrə nəzarət şöbəsinin dövlət reyestrinin aparılması, abidələrə və tədqiqatlara nəzarət sektorunun müdiri Pərviz Nəcəfovun sözlərinə görə, Dövlət Proqramının əsas məqsədlərindən biri ölkə ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin yeni siyahısının tərtib edilməsidir. Belə bir siyahı ilk dəfə Azərbaycan SSR Nazirlər Sovetinin Qərarı ilə 1957-ci ildə təsdiq olunub. 1968, 1981, 1988 və 2001-ci illərdə siyahılar dövrün imkan və tələblərinə uyğun yenilənərək təsdiqlənib. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 nömrəli Qərarı ilə ölkə ərazisində 6308 daşınmaz tarix və mədəniyyət abidəsi dövlət mühafizəsinə götürülüb.

Dövlət Xidməti tərəfindən ölkə ərazisində aparılan tarix-mədəniyyət abidələrinin monitorinqləri nəticəsində 1400-dən çox abidənin mövcudluğu müəyyən edilib, yeni aşkar olunmuş abidə kimi qeydə alınıb. Həmçinin aparılan monitorinqlər zamanı abidələrin fiziki vəziyyətləri vizual olaraq qeydiyyata alınıb, abidələrin şəkilləri çəkilib, albomu hazırlanıb, abidələrin yeni ünvanları müəyyənləşdirilib, coğrafi koordinatları GPS vasitəsilə təyin edilərək siyahıda qeyd olunub.

Pərviz Nəcəfov deyir ki, aparılmış işlər yalnız yeni siyahının hazırlanmasına xidmət etmir, həm də müasir tələblərə cavab verən



Şəki şəhəri, "Gileyli" məscidi

məlumat bazasının yaradılması üçün əsas rol oynayır: "Daşınmaz tarix və mədəniyyət abidələrinin pasportlaşdırılması və mühafizə zonalarının yaradılması da qarşımızda qoyulan əsas vəzifələrdəndir. Sovet dönəmində tərtib edilmiş pasportların müasir tələblərə cavab vermədiyini nəzərə alaraq abidənin GPS koordinatlarını, tarixi məlumatlarını, təsvirlərini və digər məlumatları özündə əks etdirən milli pasportların hazırlanmasına başlanılıb. Göstərilən meyarları əks etdirən 368 pasport hazırlanıb. Eyni zamanda qorunma işinin kompleks şəkildə təmin edilməsi məqsədilə 244 abidənin sərhədləri müəyyən edilib və müvafiq şəhər və rayon icra hakimiyyətləri və Əmlak Məsələləri Dövlət Xidməti ilə razılaşdırılaraq mühafizə zonaları hazırlanıb".

## *42 daşınmaz tarix və mədəniyyət abidəsi bərpa edilib*

Ötən müddət ərzində Azərbaycanın zəngin mədəni irsinin qorunması məqsədilə Prezident İlham Əliyevin müvafiq sərəncamları əsasında paytaxt Bakıda və bölgələrdə yerləşən onlarla tarix-mədəniyyət abidəsində də bərpa-konservasiya və yenidənqurma işləri aparılıb. Xidmət yetkilisi qeyd etdi ki, mədəni irsin qorunması sahəsində daşınmaz tarix və mədəniyyət abidələrində bərpa-konservasiya işlərinin aparılması Dövlət Xidmətinin fəaliyyətinin əsas istiqamətlərindən biridir. Qarşıdakı dövr ərzində isə bu sahəyə xüsusi diqqət ayrılacaq. Dövlət mühafizəsinə götürülmüş tarix-mədəniyyət abidələrinin yeni siyahısının təsdiqindən sonra bu istiqamətdə prioritetlər müəyyən olunacaq, abidələrin hansı ardıcıllıqla bərpa-konservasiya ediləcəyi dəqiqləşdiriləcək.

2007-2019-cu illər üzrə dövlət büdcəsində nəzərdə tutulmuş əsaslı vəsait qoyuluşu hesabına 42 daşınmaz tarix və mədəniyyət abidəsində bərpa, konservasiya və yenidənqurma işləri aparılıb, abidələrin ətrafında geniş abadlıq işləri həyata keçirilib. Təkcə son illər ərzində Gəncə şəhəri "Şah Abbas" karvansarasında, Şəki şəhəri "Gileyli" məscidinin minarəsində və Bərdə şəhərində yerləşən "Allah-Allah" türbəsində bərpa işləri aparılıb, Qazax rayonu "Sınıq körpü" abidəsində aparılan bərpa-konservasiya işlərinin ilin sonunadək yekunlaşdırılması nəzərdə tutulub. Hazırda Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq Şabran rayonunun ərazisində yerləşən, V-VI əsrlərə aid "Çıraqqala" abidəsində möhkəmləndirmə və bərpa-konservasiya işləri həyata keçirilir.

Xüsusi əhəmiyyət kəsb edən tarixi ərazilərin qorunması və bu ərazilərdə xüsusi rejimin yaradılması məqsədilə ötən il ölkə başçısının sərəncamı ilə Şəmkir rayonunun tarixi ərazisi "Qədim Şəmkir şəhəri", Ağsu rayonunun tarixi ərazisi "Orta əsr Ağsu şəhəri" tarix-mədəniyyət qoruqları elan olunub. Həmin sərəncamla qoruqların fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə "Çıraqqala" və "Şabran şəhəri" tarixi qoruqlarının ərazisi birləşdirilərək "Çıraqqala-Şabran" Dövlət Tarix-Mədəniyyət Qoruğu yaradılıb, Nizami Gəncəvi Məqbərə Kompleksi isə fəaliyyətini Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğunun tərkibində davam etdirir.

Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən respublikanın rayonlarında aparılan arxeoloji qazıntı işləri nəticəsində böyük əhəmiyyət kəsb edən abidələr aşkarlanıb. Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu və Yaponiyanın Tokio Universiteti arasında imzalanmış üçtərəfli beynəlxalq memorandum əsasında Azərbaycan-Yaponiya beynəlxalq arxeoloji ekspedisiyası "Avey" qoruğu, "SEBA" Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyası İctimai Birliyi və Qəbələ qoruğunun birgə fəaliyyəti nəticəsində Azərbaycan-Koreya arxeoloji ekspedisiyası Qədim Qəbələ şəhərində arxeoloji tədqiqat işləri aparır.



Qazax rayonu, "Sınıq körpü"

***

*Daha bir məqamı vurğulamaq istərdik: dünya təcrübəsi də göstərir ki, hər hansı bir ölkədə turizm sahəsinin inkişafında tarixi abidələrin çox böyük rolu var. Çünki bu və digər ölkəyə səfər zamanı turistləri maraqlandıran, cəlb edən məqamlardan biri də yerli özünəməxsusluqdur. Bu da tarixdə, mədəniyyətdə, abidələrdədir. Ona görə də turizm sahəsinin inkişafını özü üçün prioritet istiqamət kimi müəyyənləşdirən Azərbaycanda mövcud zəngin mədəni irsdən bu baxımdan da faydalanmaq bizə yalnız xeyir gətirər.* ❖

**Fəxriyyə Abdullayeva**

**Elnarə**